# Laylalı, bayatılı axşam

Azərbaycanımızın torpağı qədim olduğu kimi şifahi xalq ədəbiyyatı da uludur. Şifahi xalq ədəbiyyatı bildiyimiz kimi folklorun özüdür. Nağıllar, dastanlar, bayatılar, laylalar, rəvayətlər, əfsanələr, ağılar, nəğmələr və s.

Folklor kitabələr sinəsinə qazılmamış, əsrlər boyu yazıya hopmamış xalq tarixidir. Elin sözü, elin özü qədər qədimdir. İlkin nümunələri nə qədər bəsit olsa da, təbiidir, canlıdır. Məkanı xalq zəkası, xalq könlü olan bu poetik irsdə xalq öz kimliyini, yaşayış tarixini, iş-gücünü, əməl-istəyini, gün-güzəranını, taleyini əks etdirir. El öz məişətində - təsərrüfatında, maldarlıqda, qoyunçuluqda, bağ-bostanda, çeşid-çeşid mərasimlərində, xeyir və şərində, təbiətlə təmasda iç duyğularını sözlə - nəğmə və türkülərlə müşayiət etmişdir.

Bu nəğmələr dodaqlarda zaman-zaman sığallanasığallana bir az yenilənmiş, dildən-dilə düşdükcə, eldənelə dolaşdıqca dəyişmiş, hətta variantlaşmışdır. Hər oba, hər oymaq onu özününküləşdirmişdir. Bununla belə hər bir nəğmənin ilkin şirəsi, ilkin rişəsi itməmişdir. Əsrlər bir-birini əvəz etmiş, zaman dəyişmiş, ancaq bu xalq inciləri əbədiyaşar olmuşdur. Buna görə də folklorumuzun qorunub saxlanması, nəsildən-nəslə çatdırılması üçün dövlət səviyyəli proqramlar həyata keçirilir.

Bəllidir ki, rayonumuz müxtəlif xalqların adətləri, ənənələri və rəngarəng yaradıcılıq nümunələri ilə zəngindir. Bu mənada, Mədəniyyət və Turizm Nazirliyinin "2010-2014-cü illər üçün Xalq Yaradıcılığı Paytaxtları" proqramı çərçivəsində 2013-cü il üçün Zaqatala rayonunun folklor paytaxtı kimi seçilməsi təbii dəyərləndirilməlidir. Bununla bağlı il ərzində rayonda bir çox konsert-tədbirlər, müsabiqələr keçirilmişdir.

Belə tədbirlərdən biri də Zaqatala MKS-in təşkilatçılığı ilə "Laylalı, bayatılı axşam" adı altında şəhər mədəniyyət evində gerçəkləşdirilmişdir. Mərasimi giriş sözü ilə MKS-in direktoru Gülnigar Məmmədova açmışdır. Tədbirdə RİH-in ictimai-siyasi və humanitar məsələlər şöbəsinin əməkdaşı Nüşabə Süleymanova, Zaqatala Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Zümrüd Ağakişiyeva, aşıq mühitinin bilicilərindən olan "Sabaha gedən yol", "Dastanlar", "Könlüm keçir Göyçə gölündən" kitablarının müəllifi Aşıq Valeh Həsənov, Azərbaycan Müəllimlər İnstitutu Zaqatala filialının müəlllimləri Qüdrət Qırtımov, Sabir Qurbanov tədbir haqqında öz təəssüratlarını bölüşmüşlər.



Mərasimdə Azərbaycan Müəllimlər İnstitutu Zaqatala filialının tələbələri Leyla Məmmədova, Xanım Məmmədova, Sevinc Məmmədova, Sərxan Boranlı, Bakı İslam Universiteti Zaqatala filialının tələbəsi Vüsal İsmayılov, Qandax kənd orta məktəbinin şagirdləri Gülhanə Məmmədova, Rafət Babayev, Nurlan Qurbanov, Samirə Rüstəmova, şəhər 1 və 3 saylı orta məktəblərinin şagirdləri Təcli Məmmədli, Nəzmiyyət Dəmirçiyeva, Səbinə Dəmirçiyeva, şəhər humanitar fənlər gimnaziyasının şagirdi Mədət İsmayılov, həmçinin Zaqatala MKS filiallarının kitabxanaçılarından ibarət "Nənələr" ansablı çıxış etmişlər.

**Günəş QAFAROVA**